Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət
Komitəsi sədrinin

26 yanvar 2000-ci il tarixli
018 №-li Əmri ilə təsdiq edilmişdir

(04 sentyabr 2000-ci il tarixli 148 №-li
Əmrin redaksiyasında)

# Dövlət özəlləşdirmə paylarının (çeklərinin) tədavülünün tənzimlənməsi

# Q a y d a l a r ı

## I. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 25 mart tarixli 450 saylı Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında dövlət özələşdirmə payları (çekləri) haqqında Əsasnaməyə, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 580 saylı Fərmanı ilə təsdiq edilmiş "Milli Depozit Sistemi haqqında" Əsasnaməyə, Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 saylı "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Fərmanına, 1999-cu il 08 noyabr tarixli 202 saylı Fərmanı ilə təsdiq edilmiş dövlət özəlləşdirmə paylarının (çeklərinin) alqı-satqısı üzrə fəaliyyətə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarına və 1999-cu il 24 dekabr tarixli 229 saylı "Azərbaycan Respublikasının Dövlət Əmlak Nazirliyinin yaradılması haqqında" Fərmanına müvafiq olaraq hazırlanmışdır.

1.2 Çıxarılıb

## II. Özəlləşdirmə çekləri ilə əqdlərin bağlanması

2.1. Özəlləşdirmə çekləri ilə alqı-satqı əqdləri yalnız bu fəaliyyət növünə xüsusi razılığı (lisenziyası) olan hüquqi və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (bundan sonra – "Lisenziya sahibi") vasitəsi ilə həyata keçirilməlidir. Alqı-satqı zamanı özəlləşdirmə çeklərini alan və ya satan şəxs (bundan sonra – "Şəxs") Lisenziya sahibi tərəfindən yaradılmış məntəqədən alqı-satqı haqqında qəbz almalıdır. Qəbz 2 (iki) nüsxədə yazılıb, bir nüsxəsi məntəqədə saxlanılır. Qəbz alqı-satqı əməliyyatını təsdiq edən çiddi hesabat sənədidir.

2.2. Depozitariydə "depo" hesabında saxlanılan özəlləşdirmə çeklərinin alqı-satqısı, depozitariydə tərəflərin müvafiq ötürücü sərəncamı imzalaması ilə və satıcının hesabından alıcının hesabına köçürülməsi ilə tamamlanır.

2.3. Özəlləşdirmə çeklərinin özqəninkiləşdirilməsi (bu qaydaların 2.1. və 2.2. bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla) Azərbaycan Respublikasının mövcud qanunveriliciyində müəyyən olunmuş qaydada həyata keçirilir.

3. Özəlləşdirmə çeklərinin qeydiyyatdan keçirilməsi

3.1. Özəlləşdirmə çeklərinin 400 (dörd yüz) ədəddən artığının sahibi olan və məntəqədən alqı-satqısı haqqında qəbzi olmayan Şəxs, həmin özəlləşdirmə çeklərini Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində (bundan sonra – "QKDK") bu Qaydalar təsdiq edildiyi gündən 45 (qırx beş) gün müddətində qeydiyyatdan keçirməlidir.

Özəlləşdirmə çeklərini qeydiyyatdan keçirmiş Şəxsə "Dövlət özəlləşdirmə çeklərinin qeydiyyatı haqqında" Şəhadətnamə (Forma №1) və ona əlavə olunan qeydiyyatdan keçirilmiş özəlləşdirmə çeklərinin seriya və nömrələri göstərilməklə QKDK tərəfindən təsdiq olunmuş siyahı verilir.

3.2. Qeydiyyat haqqında Şəhadətnamə - özəlləşdirmə çeklərinin QKDK-da qeydiyyatdan keçməsini təsdiq edən sənəddir. Şəhadətnamədə özəlləşdirmə çeklərinin sayı və sahibinin adı öz əksini tapmalıdır. Şəhadətnamə QKDK-nın rəhbər şəxsi tərəfindən imzalanıb möhürlə təsdiq edilir.

3.3. Hüquqi şəxs özəlləşdirmə çeklərini qeydiyyatdan keçirmək üçün özəlləşdirmə çeklərini və aşağıda qöstərilən sənədləri QKDK-ya təqdim etməlidir:

3.3.1. hüquqi şəxsin adı, hüquqi ünvanı, hesablaşma hesabının nömrəsi və bankın adı, qeydiyyata təqdim olunacaq özəlləşdirmə çeklərinin sayı göstərilməklə ərizə;

3.3.2. hüquqi şəxsin təsis sənədlərinin notarial qaydada təsdiq edilmiş surəti;

3.3.3. hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamənin notarial qaydada

təsdiq edilmiş surəti.

3.4. Fiziki şəxs özəlləşdirmə çeklərini qeydiyyatdan keçirmək üçün özəlləşdirmə çeklərini və aşağıda qöstərilən sənədləri QKDK təqdim etməlidir:

3.4.1. fiziki şəxsin adı, soyadı, şəxsiyyəti təsdiq edən sənədin məlumatları (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir), ünvanı və qeydiyyata təqdim olunacaq özəlləşdirmə çeklərinin sayı göstərilməklə ərizə;

3.4.2. şəxsiyyəti təsdiq edən sənəd;

4. Dövlət özəlləşdirmə çeklərinin saxlanılması

4.1. Hər bir Şəxs xüsusi mülkiyyət hüququ əsasında ona məxsus olan özəlləşdirmə çeklərini istədiyi yerdə saxlaya bilər.

4.2. Mülkiyyətçinin özəlləşdirmə çeklərini müqavilə əsasında (deponentləşdirmə müqaviləsi istisna olmaqla) saxlayan Şəxs həmin özəlləşdirmə çeklərini depozitariydə saxlamalıdır.

4.3. 400 (dörd yüz) ədədə qədər özəlləşdirmə çekinin sahibi olan Şəxs, özəlləşdirmə çeklərinin depozitariyada "depo" hesabında saxlanılması üçün oraya özəlləşdirmə çeklərini və depozitariy tərəfindən tələb olunan daxili standartlara uyğun sənədləri təqdim etməlidir. Bu halda həmin özəlləşdirmə çeklərinin Şəxsə məxsus olması haqqında sənədin (alqı-satqı haqqında qəbz və ya qeydiyyat haqqında Şəhadətnamə və ona əlavə olunan özəlləşdirmə çeklərinin seriya və nömrələri göstərilməklə siyahı) təqdim edilməsi tələb olunmur.

4.4. 400 (dörd yüz) ədəddən artıq özəlləşdirmə çeklərinin sahibi olan Şəxs, özəlləşdirmə çeklərinin depozitariydə "depo" hesabında saxlanılması üçün özəlləşdirmə çeklərini və depozitariy tərəfindən tələb olunan zəruri sənədlərlə birlikdə məntəqədən qəbz və ya QKDK tərəfindən verilmiş şəhadətnaməni və ona əlavə olunan özəlləşdirmə çeklərinin seriya və nömrələrinin siyahısını depozitariyə təqdim etməlidir. Şəxs, yuxarıda qeyd olunmuş sənədi təqdim etmədikdə depozitariy tərəfindən özəlləşdirmə çeklərinin deponentləşdirilməsi qadağandır.

4.5. Depozitariy özəlləşdirmə çeklərini deponentləşdirdikdən sonra Şəxsə özəlləşdirmə çeklərinin deponentləşdirilməsi haqqında şəhadətnamə (bundan sonra – "deponentləşldirmə haqqında Şəhadətnamə") verməlidir (Forma №2).

4.6. Deponentləşdirmə haqqında Şəhadətnamə deponentləşdirilmiş özəlləşdirmə çekləri üzərində mülkiyyət hüququnu təsdiq edən rəsmi sənəd olaraq özəlləşdirmə

prosesində ödəniş vasitəsi qüvvəsinə malik deyil. Deponentləşdirmə haqqında şəhadətnamə adlıdır və diqər şəxslər tərəfindən istifadə oluna bilməz.

4.7. Özəlləşdirmə çeklərinin deponentləşdirilməsi qanunvericilikdə müəyyən olunmuş qaydada həyata keçirilir.

V. Çıxarılıb

V.I. Çıxarılıb

VII. Məsuliyyət

7.1. Özəlləşdirmə çeklərinin tədavülünə dövlət nəzarəti Azərbaycan Respubliasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirir.

7.2. Bu Qaydalara riayət etməyən şəxslər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

VIII. Qüvvəyə minməsi

8.1. Bu Qaydalar təsdiq edildiyi gündən qüvvəyə minir.

Forma №1

Dövlət özəlləşdirmə çeklərinin qeydiyyatı haqqında
ŞƏHADƏTNAMƏ

Verilir ondan ötrü ki,__________________________________________________
*(hüquq şəxs olduqda tam adı, dövlət qeydiyyat nömrəsi; fiziki şəxs olduqda*

______________________________________________________________________
*soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin məlumatları)*

sayı______________________________________________________________ədəd
*(rəqəm və yazı ilə)*

olan dövlət özəlləşdirmə çeklərini Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində “____”_________________2000-ci il tarixində qeydiyyatdan keçmişdir.

Qeydiyyat №___________

Sədr H.Babayev

Forma №2

## DÖVLƏT ÖZƏLLƏŞDİRMƏ ÇEKLƏRİNİN DEPONENTLƏŞDİRİLMƏSİ HAQQINDA

# ŞƏHADƏTNAMƏ№

*Bakı şəhəri* “____”________________ *il*

Müvəkkil depozitar________________________________________________

*(şəhadətnaməni verən təşkilatın adı, hüquqi ünvanı)*

Deponent________________________________________________

*(A,A,S/tam adı)*

________________________________________________

*(ünvan / hüquqi ünvan)*

________________________________________________

*(şəxsiyyəti təsdiq edən sənədin seriyası, nömrəsi, verilən tarixi və orqanı/qeydiyyata alan orqan, dövlət qeydiyyat nömrəsi və tarixi)*

özəlləşdirmə çeklərinin sayı________________________________________________ədəd

*(rəqəm və yazı ilə)*

“Depo” hesabının №______________

Müvəkkil depozitarın
rəhbər şəxsi

_________________
*(imza)*

M.Y. _________________ İcraçı

*(imza)*

Forma №3

DÖVLƏT ÖZƏLLƏŞDİRMƏ ÇEKLƏRİNİN

DEPONENTLƏŞDİRİLMƏSİ HAQQINDA

ARAYIŞ

Verilir_________________________________________________________________
*(fiziki şəxsin S.A.A./hüquqi şəxsin tam adı)*

_________________________________________________________________________
*(şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsi /qeydiyyata alan orqanın adı, dövlət qeydiyyat nömrəsi və tarixi)*

ondan ötrü ki, onun tərəfindən “____”_________________ il tarixində təqdim edilmiş

________________________________________________________ədəd dövlət

özəlləşdirmə çeki deponentləşdirilmişdir.

Arayış ____________________________________________________________
*(investisiya müsabiqəsi / çek auksionu / qapalı abunə yazılışı və digər )*

iştirak etmək üçün verilir.

Milli Depozitar Mərkəzinin
rəhbər şəxsi M.Y.

Forma №4

DÖVLƏT ÖZƏLLƏŞDİRMƏ ÇEKLƏRİNİN

DEPONENTLƏŞDİRİLMƏSİ VƏ SİLİNMƏSİ HAQQINDA

# ARAYIŞ

Verilir ________________________________________________________________

*(S.A.A.)*

ondan ötrü ki, onun tərəfindən “_____”________________________ il

tarixində____________ manat müqabilində təqdim edilmiş _____________ ədəd dövlət

özəlləşdirmə çeki deponentləşdirilərək silinmişdir.

Milli Depozitar Mərkəzinin
rəhbər şəxsi

M.Y.